*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 12 dekabr 2018-ci il № 96 (2312) Qiyməti 25 qəpik


# Ulu Öndərin ömür yolu Vətənə və xalqa xidmət nümunəsidir

Azərbaycan Prezidenti İlham ƏLİYEV:

*Heydər Əliyev dahi şəxsiyyət, uzaqgörən lider, cəsarətli insan idi. O, öz həyatını doğma xalqına həsr etmişdir. Bütün dövrlərdə xalqa ləyaqətlə, sədaqətlə xidmət etmişdir. Cəmiyyətin ictimai-siyasi quruluşundan asılı olmayaraq, Heydər Əliyev bütün dövrlərdə xalqın dəstəyini hiss edərək Azərbaycanı inamla irəliyə aparırdı.*



*Bəşər mədəniyyəti tarixinin araşdırılması sahəsində əldə olunan nəticələr sübut edir ki, insanların mənəviyyatı, əxlaqi təsəvvür və görüşləri, adət-ənənələri ilə bağlı olan milli-mənəvi dəyərlərin yaradıcısı xalqdır. Qədim dövlətçilik tarixinə malik olan Azərbaycan xalqına da tale belə bir zənginlik qismət etmişdir.*

Hər hansı bir xalqın mədəniyyətinin inkişafında, milli şüurunun formalaşmasında tarixən yaranmış milli-mənəvi dəyərlər mühüm rol oynayır. Çünki hər bir xalqın milli-mənəvi dəyərlərini şərtləndirən dil, din və adət-ənənə onun mənəvi aləminin formalaşmasına həlledici təsir göstərən amillərdəndir. Hər hansı bir ölkədə xalqın milli-mənəvi dəyərlərinin qorunması və mədəniyyətinin inkişaf etdirilməsi vətəndaşların milli birliyinin təmin olunmasına xidmət edir.

Milli irsimizin mühafizəsi məsələsi, ilk növbədə Azərbaycan Respublikası Konstitusiyasının 40-cı maddəsində öz əksini tapıb: "Hər kəs tarixi, mədəni və mənəvi irsə hörmətlə yanaşmalı, ona qayğı göstərməli, tarix və mədəniyyət abidələrini qorumalıdır".

Ümummilli liderimiz Heydər Əliyev həmişə xalqımızın milli-mənəvi dəyərlərinin qorunmasına, milli mədəniyyətimizin inkişafına, xalqın adət-ənənələrinin zənginləşdirilməsinə çalışmışdır. Eyni zamanda, Ulu Öndər gənclərimizi xalqımızın milli-mənəvi dəyərləri, milli əxlaq prinsipləri əsasında tərbiyə etməyi tövsiyə edirdi: "Biz öz milli-mənəvi dəyərlərimizi, adət-ənənələrimizi, əxlaqi dəyərlərimizi bütün istiqamətlərdə qorumalıyıq, saxlamalıyıq və gənc nəsli əsrlər boyu böyük sınaqlardan keçmiş bu mənəvi, əxlaqi dəyərlər ruhunda tərbiyələndirməliyik".

Milli-mənəvi dəyərlərimizin mənimsənilməsində, onun daha da təkmilləşdirilməsində doğma dilimizin müstəsna rol oynadığı şübhəsizdir. Bu vacib amili nəzərə alan ulu öndər Heydər Əliyevin təşəbbüsü və qətiyyəti ilə 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olunmuşdu. Ulu öndər Heydər Əliyev müstəqillik illərində gənc dövlətin siyasi və iqtisadi əsaslarını yaratmaqla yanaşı, xalqımızın milli-mənəvi irsini özündə yaşadan azərbaycançılıq ideyasının da təşəkkül və inkişafına diqqət yetirirdi. O, azərbaycançılığı milli bir ideologiya kimi irəli sürür və milli-mənəvi dəyərləri bu ideologiyanın ən mühüm istiqamətlərindən və tərkib hissələrindən biri kimi qiymətləndirirdi. Onun vaxtilə söylədiyi və bütün dünya azərbaycanlıları üçün həmişə bir fəaliyyət devizi olacaq bu fikri nə qədər dərin və mənalıdır: "Hər bir azərbaycanlı mənsubiyyətinə görə qürur keçirməlidir və biz azərbaycançılığı - Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini yaşatmalıyıq". Azərbaycançılıq öz milli mənsubiyyətini, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir. Milli dəyərlərimizə dərindən bələd olan Ümummilli Liderimiz xarici ölkələrə səfərləri zamanı soydaşlarımızla görüşlərində onlara harada yaşamalarından asılı olmayaraq azərbaycançılıq ideologiyasına sadiqliyi, xalqımıza xas olan adət-ənənələrimizi yaşatmağı, təbliğ etməyi tövsiyə edirdi: "Bizim hamımızın bir Vətəni var - bu, Azərbaycandır. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycançılığını, öz dilini, milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır".

Azərbaycan xalqı tarixin ən çətin dövrlərində belə, öz zəngin milli-mənəvi irsini və adət-ənənəsini yad təzahürlərdən hifz edərək onu qoruyub saxlamış və nəsildən-nəslə ötürmüşdür. Xalqımızın milli-mənəvi dəyərləri, adət-ənənəsi insanlarımızın dini etiqadına əsaslanaraq özündə çox böyük milli əxlaqi və bəşəri duyğuları təcəssüm etdirir. Müqəddəs daxili inama, mənəvi saflığa tapınan Azərbaycan xalqı tarixin ən keşməkeşli mərhələlərində belə, mənəviyyatın təntənəsinə xidmət edən İslam dininin zəngin dəyərlərindən dönməyərək bu dəyərlərə həmişə sadiq qalmışdır. İslam dininin mahiyyətini dərk edən xalqımız onun insan ruhunu paklığa səsləyən müqəddəs çağırışlarına, mərasim və ayinlərinə tarixin bütün məqamlarında əməl etməyə çalışmışdır. Ulu Öndər bu haqda demişdir: "Bizim xalqımız yüz illərlə, min illərlə adət-ənənələrimizi, milli-mənəvi dəyərlərimizi yaradıbdır və bunlar indi bizim xalqımızın mənəviyyatını təşkil edən amillərdir".

Hətta insanların yaddaşında ateizm mərhələsi kimi qalan Sovet dönəmində də xalqımız öz milli-mənəvi dəyərlərindən, dini baxışları və adət-ənənələrindən uzaqlaşmamış, əksinə, milli və dini əxlaqa söykənərək xeyirxah işlər görərək, qohum-qonşulara, maddi yardıma ehtiyacı olanlara əl tutaraq savab qazanmağa can atmışlar. Eyni zamanda xalqımız həmin dövrdə bir çox qadağalara baxmayaraq milli və dini bayramlarını da qeyd etmişdir.

**(Ardı 2-ci səhifədə)**

# Ulu Öndərin ömür yolu Vətənə və xalqa xidmət nümunəsidir

**(Əvvəli 1-ci səhifədə)**



Respublikamızda ikinci dəfə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev ilk gündən Azərbaycan xalqının milli-mənəvi dəyərlərinə, adət-ənənələrinə sadiq olduğunu öz fəaliyyəti, əməlləri və bu sahədə həyata keçirdiyi tədbirlər vasitəsilə sübut etmişdir.

Ümummilli Lider Azərbaycan Respublikasının Prezidenti olduğu dövrdə (1993-2003-cü illər) xalqımızın milli-mənəvi dəyərlərinin, onun adət-ənənələrinin dirçəldilməsi, xüsusən İslam mədəniyyəti nümunələri olan məscidlərin, tarixi memarlıq abidələrinin, ziyarətgahların bərpası ilə bağlı tədbirlərin həyata keçirilməsi onun bir daha xalqa mənən bağlılığını və islami dəyərlərə sədaqətini göstərən parlaq misallardır. Ulu öndər Heydər Əliyevin tez-tez dindarlarla görüşməsi, dini bayramlarda məscidlərə getməsi, dindarların mənəvi ehtiyaclarına həssaslıqla yanaşması xalq arasında həmişə böyük razılıq hissi ilə qarşılanmışdır.

Azərbaycanda dövlət müstəqilliyinin bərpasından sonra respublikamızda dini bayramların, o cümlədən Qurban bayramının rəsmi şəkildə qeyd olunmasını vurğulayan Ulu Öndər bu bayramın bəşəri-mənəvi dəyərlərindən insanların faydalanmasının əhəmiyyətindən bəhs edərək demişdir: "Müsəlmanların böyük bir təntənə ilə həmrəylik və qardaşlıq rəmzi kimi qeyd etdikləri Qurban bayramı insanlar üçün yüksək bəşəri-mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır. İslamın insanpərvərlik, mehribanlıq və mərhəmət prinsiplərinə həmişə sadiq qalmış Azərbaycan xalqı tarixinin çətin dövrlərində belə, Qurban bayramını özünün ən əziz günlərindən biri kimi qeyd etmişdir. Dövlət müstəqilliyimizin bərpasından sonra bu günün rəsmi şəkildə bayram edilməsi xalqımızın öz milli və dini ənənələrinə sədaqətinin parlaq ifadəsidir".

Azərbaycanın gələcək inkişaf strategiyasını müəyyənləşdirmiş ümummilli lider Heydər Əliyev bütün cəmiyyəti səfərbər edərək onu düzgün yola istiqamətləndirdi. Bu gün 90-cı illərin çətinliklərini artıq geridə qoymuşuq. Biz müasir Azərbaycan dövlətinin inkişafında yeni mərhələ yaşayırıq. Ümummilli liderimiz Heydər Əliyevin siyasi kursunu Prezident İlham Əliyev inamla və sədaqətlə davam etdirir.

Ümummilli lider Heydər Əliyev həmişə həm müdrik el ağsaqqalı, həm də təcrübəli dövlət başçısı kimi cəmiyyətimizin mənəvi əsaslarını təşkil edən ümdə prinsiplər və onların qorunub inkişaf etdirilməsi istiqamətləri barədə çox dəyərli fikirlərini xalqla bölüşmüşdür. Belə bir ünsiyyətin fərqləndirici əlaməti onun rəsmiyyətdən uzaqlığı, Ulu Öndərin cəmiyyətin sadə üzvləri ilə daim təmasda olması, həmişə xalqa bağlılığı ilə şərtlənirdi.

Ulu öndər Heydər Əliyev türkdilli xalqların öz milli tarixlərini, doğma dillərini, ədəbiyyatlarını, mədəniyyət və incəsənətini, adət-ənənələrini qorumağı və onları zənginləşdirməyi həmişə dəstəkləmişdir. Bu baxımdan ümummilli lider Heydər Əliyev türkdilli ölkələrin mədəni əlaqələrini həyata keçirən Türksoy təşkilatının fəaliyyətinin genişlənməsinə və Azərbaycanın bu təşkilatın işində fəallıq göstərməsinə həmişə xüsusi diqqət yetirmişdir.

Azərbaycan cəmiyyətinin ölkənin müstəqilliyinin və ərazi bütövlüyünün müdafiəsi kimi vahid məqsəd ətrafında birləşdirilməsi, onun mübariz ruhunun təşkilatlandırılması və istiqamətləndirilməsi, mənəvi potensialının üzə çıxarılması üçün ulu öndər Heydər Əliyevin istinad etdiyi ən qiymətli meyar və nümunələrdən biri xalqın hərbi və qəhrəmanlıq tarixi idi. Bu tarixi o, keçmişimizdən miras qalmış zəngin bir sərvət kimi qiymətləndirir və ölkənin müdafiəsinin təşkilinin müxtəlif məsələləri ətrafında etdiyi çıxışlarında hər bir vətəndaşı da bu tarixə tapınmağa çağırırdı. Ölkə rəhbərinin fikrincə, bu tarix Azərbaycan xalqının Vətənə, torpağa bağlılıq, Vətənə sevgi tarixi idi və bu tarixə sədaqət əldə edilmiş müstəqilliyin həmişəyaşarlığına real zəmin yarada bilərdi. Məsələn, Azərbaycan xalqının ümummilli lideri bildirirdi: "Azərbaycan Respublikasının öz torpaqlarını müdafiə etmək üçün böyük potensialı var. Ən böyük potensial bizim insanların Vətənə, torpağa bağlılığı, Vətəni, torpağı sevməsi və onu qorumaq hissidir. Bu, xalqımızın tarixi ənənələrindən irəli gələn hissidir. Güman edirəm ki, xalqımızın tarixi ənənələrimizi, keçmişimizi yada salaraq Azərbaycan bu ağır vəziyyətdən çıxması üçün bundan sonra səmərəli tədbirlər görəcəkdir". Başqa bir çıxışında ulu öndər Heydər Əliyev "Azərbaycan xalqının tarix boyu nümayiş etdirdiyi qəhrəmanlıq, cəsurluq ənənələri bu gün müstəqil Azərbaycan dövlətində yenidən yüksəlmişdir və daha da canlanacaqdır", - deyirdi. Onun belə bir fikri də vardır: "Azərbaycan xalqı tarix boyu, əsrlər boyu həmişə mərdlik, cəsarət, qəhrəmanlıq göstərmişdir, öz yurdunu, öz torpağını müdafiə etmişdir, öz mənliyini qoruyub saxlamışdır".

Hərbi irsin öyrənilməsinin metodoloji, elmi-praktiki, mənəvi-tərbiyəvi əhəmiyyəti vardır. Bu məqamların hər biri özlüyündə vacib məsələlərdir və ölkənin müdafiəsinin təşkilində onlar öz aktuallığını itirməmişlər. İlk baxışdan güman etmək olar ki, elmin, texnikanın yüksək inkişaf səviyyəsi ilə səciyyələnən müasir həyatda hərbi irsin, tarixi ənənələrin öyrənilməsinin ciddi bir səmərəsi ola bilməz. Lakin elə elmi və praktiki qənaətlər vardır ki, həmin qənaətlər hər zaman öz aktuallığını qoruyub saxlamaqdadır. Çünki onlar hərb işinin əsasını təşkil edir və onlar mahiyyət etibarı ilə dəyişməzdir. Dəyişən yalnız onları hərəkətə gətirən qüvvələrdir. Məsələn, xalq ilə ordu arasındakı münasibətlər, müharibənin aparılmasına xalqın münasibəti və onun müharibəyə necə səfərbər olunması, ölkənin müdafiəsinin təşkilində xarici siyasətin nəzərə alınması, ölkənin müdafiəsinin təşkilinin maddi və mənəvi amillərdən asılılığı, ölkənin müdafiəsinin təmin edilməsi üçün dövlətin apardığı siyasətin xarakteri və s. Bu məqamların sayı çoxdur və Azərbaycan xalqının qəhrəmanlıq tarixi də bütün bu məqamların yüksək məharətlə icrasının ifadəsidir. Ulu öndər Heydər Əliyev də məhz Azərbaycan xalqının belə qəhrəmanlıq tarixini bugünkü mübarizə üçün örnək sayırdı.

Azərbaycanın müstəqilliyinə sədaqət nümayiş etdirən, mənəviyyatca saf olan zabit kadrlarının hazırlanması üçün ulu öndər Heydər Əliyev hərbi təhsil sisteminin yaradılmasına və möhkəmləndirilməsinə xüsusi əhəmiyyət verirdi. Məlumdur ki, hələ sovet dövründə Heydər Əliyev bu mühüm sahədə dəyərli işlər görmüşdü və milli hərbi kadrlar hazırlığı üçün qiymətli bir baza yaratmışdı. Ona görə də müstəqillik illərində hərbi təhsil bazasının daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsi üçün əlverişli imkan mövcud idi. Ulu öndər Heydər Əliyev iştirak etdiyi tədbirlərdən birində Azərbaycanda Ali Hərbi Məktəbin, Ali Hərbi Təyyarəçilik Məktəbinin, Ali Hərbi Dənizçilik Məktəbinin, Hərbi Akademiyanın, müxtəlif təkmilləşdirmə kurslarının mövcudluğunu və onların milli hərbi kadrlar hazırlığı istiqamətindəki fəaliyyətini məmnunluqla qeyd edirdi. Onun sözlərinə görə, artıq formalaşmış olan hərbi təhsil sistemi Azərbaycan Respublikası Silahlı Qüvvələri üçün yeni zabitlər, müxtəlif ixtisaslar üzrə mütəxəssislər hazırlayacaqdır ki, bu da Azərbaycan Ordusunun müasir tələblərə uyğun inkişafına kömək edəcəkdir.

Ulu öndər Heydər Əliyev tərəfindən Azərbaycanda hərbi təhsil sisteminin inkişafına və möhkəmləndirilməsinə xüsusi diqqət yetirməsinin nəticəsi idi ki, atəşkəs dövründə mövcud olan hərbi təhsil sisteminin kifayət qədər təkmilləşdirilməsi üçün ciddi işlər görüldü. Ulu öndər Heydər Əliyevin şəxsi təşəbbüsü və qətiyyəti nəticəsində 1971-ci ildə əsası qoyulmuş Cəmşid Naxçıvanski adına xüsusi internat məktəbi 1997-ci ildə ulu öndər Heydər Əliyevin sərəncamı ilə C.Naxçıvanski adına Hərbi Lisey adlandırılmışdır. Atəşkəs dövründə ulu öndər Heydər Əliyev dəfələrlə liseydə olmuş, orada hərbi təhsilin gedişi ilə maraqlanmışdı. 2003-cü ilin aprelində ulu öndər Heydər Əliyev liseyin təşkilinin 30 illiyinə həsr edilmiş təntənəli mərasimdə də iştirak etdi. Bu tipli tədris ocağının milli kadrların hazırlanması sahəsindəki əhəmiyyəti nəzərə alındığı üçün Azərbaycan Respublikası Prezidentinin 13 mart 1998-ci il tarixli sərəncamı ilə C.Naxçıvanski adına Hərbi Liseyin Naxçıvan filialı təşkil edildi. 2004-cü ildə isə bu liseyin bazasında Heydər Əliyev adına Hərbi Lisey yaradıldı.

Sovet dövründən mövcud olan ali hərbi məktəblərin fəaliyyəti isə atəşkəs dövründə daha da təkmilləşdirildi. Hələ sovet dövründə zabit kadrların hazırlığının tanınmış məktəblərindən olan Bakı Ali Ümumqoşun Komandirləri Məktəbi Azərbaycanın müstəqilliyinin qazanılmasından sonra Bakı Ali Birləşmiş Komandanlıq Məktəbi adlandırıldı. Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 20 avqust 2001-ci il tarixli sərəncamı ilə bu məktəb Azərbaycan Ali Hərbi Məktəbi adlandırıldı. Azərbaycan Respublikası Prezidentinin 10 mart 2004-cü il tarixli fərmanı ilə məktəb indi Heydər Əliyevin adını daşıyır.

Ulu öndər Heydər Əliyevin ordu quruculuğunda irəli sürdüyü tələblərə onun bu istiqamətdəki təşkilatçılıq qabiliyyəti və işgüzarlığı nümunə idi. Məsələn, təkcə 1993-1998-ci illər ərzində ulu öndər Heydər Əliyev tərəfindən ordu quruculuğu məsələləri ilə bağlı 109 müşavirə, iclas və görüş keçirilmişdi. Həmin tədbirlərdə Azərbaycanın suverenliyinin və ərazi bütövlüyünün qarantı olacaq möhkəm ordu formalaşdırılmasının ən müxtəlif məsələləri və vəzifələri müzakirə edilmiş, əldə olunmuş qərarlar Müdafiə Nazirliyinin və digər müvafiq dövlət strukturlarının fəaliyyətinin əsasını təşkil etmişdi. Ordu quruculuğu məsələlərinə dövlət rəhbərliyinin qayğı və tələbkarlığının artırılması, bu istiqamətdə görülən işlərin sistemləşdirilməsi və təkmilləşdirilməsi Silahlı Qüvvələrin formalaşmasına da müsbət təsir göstərirdi.

Ulu öndər Heydər Əliyevin qətiyyətinin və böyük sərkərdəlik məharətinin nəticəsi idi ki, Azərbaycanın hərb tarixinə qızıl hərflərlə yazılan Horadiz əməliyyatı baş tutdu və 21 min hektar ərazi işğaldan azad edildi. Bütün bunlar sübut edir ki, bu gün Azərbaycanın qüdrətli və nizami orduya malik olması məhz ümummilli lider Heydər Əliyevin gərgin zəhmətinin bəhrəsidir.

Müasir ordu quruculuğunu xarakterizə edən, milli ordumuzun möhkəmlənməsinə geniş imkanlar yaradan əsas amil dinamik iqtisadi inkişaf və ölkəmizin iqtisadi qüdrətinin artmasıdır. İqtisadi inkişaf ordumuzun bütün istiqamətlər üzrə potensialının yüksək səviyyəyə çatdırılmasına və Azərbaycanda hərbi sənaye potensialının gücləndirilməsinə geniş imkanlar yaradır.

Ulu öndər Heydər Əliyevin zəngin dövlətçilik ənənələrinin layiqli davamçısı olduğunu əməli fəaliyyəti ilə sübuta yetirən Prezident İlham Əliyev regionda cərəyan edən proseslərin istiqamətini müəyyənləşdirən, ona təsir göstərən ciddi fenomenə çevrilmişdir. Bu gün Prezident İlham Əliyevi, eyni zamanda Azərbaycanın milli-mənəvi dəyərlərinin ən qüdrətli mühafizəçisi kimi görürük.

2004-cü ildən fəaliyyətə başlamış Heydər Əliyev Fondu təhsil, səhiyyə, mədəniyyət, idman, elm, texnologiya, ekologiya, sosial və digər sahələrdə müxtəlif layihələr həyata keçirərək yeni cəmiyyət quruculuğunda fəal iştirak edir, ölkənin sosial-iqtisadi inkişafına öz töhfəsini verir. Azərbaycanın mədəniyyət inciləri olan muğamın, aşıq musiqisinin, xalçaların YUNESKO-nun mədəni irs siyahısına daxil edilməsində Heydər Əliyev Fondunun xidmətləri danılmazdır. Bundan əlavə, nadir təbiət nümunələrinin, arxeoloji qazıntılar nəticəsində tapılan maddi mədəniyyət nümunələrinin dövlət tərəfindən mühafizə edilməsi, muzeylərin yaradılması və təmir-bərpa işlərinin aparılması Azərbaycan milli-mədəni irsinin qorunmasında dövlətin gördüyü işlər sırasındadır.

Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin qeyd etdiyi kimi: "Heydər Əliyev bütün zamanlarda, bütün dövrlərdə Azərbaycan xalqına ləyaqətlə xidmət etmişdir. Azərbaycanın müstəqilliyinin əbədi, dönməz olmasında, iqtisadi potensialının möhkəmlənməsində, bölgədə və dünyada nüfuzunun artmasında onun müstəsna xidmətləri var. Hazırda bu siyasət davam etdirilir. Bu gün ulu öndər Heydər Əliyev bizimlə deyil, ancaq onun siyasəti yaşayır, onun qurduğu müstəqil Azərbaycan yaşayacaqdır".

Bu siyasət möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə qarşıya qoyulan bütün hədəflərin gerçəkləşməsinə, müstəqil Azərbaycanın gələcək tərəqqisinə, daha qüdrətli dövlətə çevrilməsinə, xalqımızın daha firavan həyata qovuşmasına mütləq əminlik yaradır.

**Polkovnik**
**Telman ŞAHBAZOV,**
**Silahlı Qüvvələrin**
**Hərbi Akademiyası**

# Prezident İlham Əliyev NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanının rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev dekabrın 11-də NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı (SACEUR) Körtis Skaparrottinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib.*



AZƏRTAC xəbər verir ki, Azərbaycanın NATO ilə tərəfdaşlığının uzun tarixə və geniş gündəliyə malik olduğunu deyən dövlətimizin başçısı bu ilin iyul ayında NATO-nun mənzil-qərargahına son səfərini və Brüsseldə keçirilmiş Zirvə toplantısında iştirakını xatırladı və bunun əlaqələrimizin inkişafına müsbət təsir göstərdiyini qeyd etdi. Dövlətimizin başçısı ümumilikdə NATO-nun mənzil-qərargahına etdiyi bütün səfərlərin müsbət xarakter daşıdığını qeyd etdi. Prezident İlham Əliyev NATO-nun Əfqanıstanda Qətiyyətli Dəstək Missiyasında ölkəmizin fəal iştirak etdiyini, Azərbaycan hərbçilərinin sayının artırıldığını və əməliyyatlarda iştirak edən dövlətlərə zəruri nəqliyyat və logistik dəstək göstərildiyini vurğuladı. Prezident İlham Əliyev, eyni zamanda, Azərbaycanın ikitərəfli əsasda da Əfqanıstana dəstək göstərdiyini, ölkəmizin təşəbbüsü və iştirakı ilə həyata keçirilən nəqliyyat layihələrinin Əfqanıstan üçün yeni imkanlar yaratdığını vurğuladı. Dövlətimizin başçısı NATO-nun yüksək səviyyəli nümayəndə heyətinin ölkəmizə səfərinin ikitərəfli tərəfdaşlığın gündəliyində duran vacib məsələlərin müzakirəsi üçün əlverişli imkan yaratdığını dedi.

NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı Körtis Skaparrotti onu və rəhbərlik etdiyi nümayəndə heyətini qəbula və Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə dekabrın 12-də Bakıda keçirilməsi nəzərdə tutulan görüşə ev sahibliyi etdiyinə görə dövlətimizin başçısına minnətdarlığını bildirdi. O, Bakının NATO-Rusiya formatında görüşünün keçirilməsi üçün tam münasib məkan olduğunu, Azərbaycanın artıq ikinci dəfədir ki, belə bir tədbirə ev sahibliyi etməsinin əhəmiyyətini vurğuladı. Qonaq Azərbaycanın NATO-nun etibarlı və fəal tərəfdaşı olduğunu qeyd etdi, ölkəmizin Əfqanıstanda Qətiyyətli Dəstək Missiyasına verdiyi töhfəsini, Azərbaycan hərbçilərinin Əfqanıstanda və eləcə də ölkəmizin hərbçilərinin peşəkarlıqla NATO qərargahlarında xidmətini və NATO-nun təlimlərində iştirakını yüksək qiymətləndirdi.

Dövlətimizin başçısı qlobal təhlükəsizliyə aid olan vacib məsələlərin müzakirə edilməsi üçün bir çox ölkələr arasından Azərbaycanın seçilməsini ölkəmizə olan hörmət və etimadın təzahürü kimi dəyərləndirdi və bunun, eyni zamanda, ölkəmizin regional təhlükəsizlik, inkişaf və sabitliyin təmin edilməsində oynadığı rolun və yürütdüyü siyasətin göstəricisi olduğunu dedi.

# Azərbaycanın Müdafiə naziri İranın Sərhəd Qoşunları komandanı ilə görüşüb



*Dekabrın 11-də Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov İran İslam Respublikasının Sərhəd Qoşunları komandanı general-mayor Qasım Rzayinin rəhbərlik etdiyi nümayəndə heyəti ilə görüşüb.*

General-polkovnik Zakir Həsənov regiondakı hərbi-siyasi vəziyyət, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin bölgədəki sabitliyə ciddi təhdid təşkil etdiyini qonaqların diqqətinə çatdırıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, dövlətlərimiz arasındakı dini, tarixi, mədəni əlaqələrin mehriban dostluq ənənələrinə əsaslandığını, ölkələrimiz arasında bir çox istiqamətlərdəki kimi hərbi sahədə də əməkdaşlıq üçün geniş potensialın olduğunu vurğulayan general-mayor Q.Rzayi ölkəsinin Azərbaycanın ərazi bütövlüyünü və münaqişənin həlli ilə bağlı ədalətli mövqeyini dəstəklədiyini bəyan edib.

Görüşdə Azərbaycan və İran orduları arasında hərbi sahədə əməkdaşlığın inkişaf perspektivləri və maraq doğuran digər məsələlər barədə ətraflı fikir mübadiləsi aparılıb.

# “Paşinyanın Türkiyə ilə əlaqələr qurmaq barədə dedikləri təcavüzkar dövlətin əsl xislətini əks etdirir”

Ermənistanın baş naziri vəzifələrini icra edən Nikol Paşinyanın ölkəsində keçirilmiş seçkilərdən sonra "Türkiyə ilə heç bir ilkin şərt olmadan əlaqələr qurmağa hazırıq" fikrini səsləndirməsi təcavüzkar dövlətin əsl xislətini əks etdirir.

Bu fikirləri AZƏRTAC-a müsahibəsində türkiyəli hərbi ekspert, sosial elmlər üzrə doktor, ehtiyatda olan polkovnik Eray Guçlüer deyib.

Azərbaycanın işğal altında saxlanılan torpaqlarının qeyd-şərtsiz azad olunmayınca, eləcə də Türkiyəyə qarşı əsassız iddiaları aradan götürülməyənədək Ermənistanla heç bir münasibətin qurula bilməyəcəyini diqqətə çatdıran polkovnik deyib: "Paşinyanın dedikləri bu vaxta qədər Ermənistana rəhbərlik edən cinayətkar rejimin təmsilçilərinin illərdən bəri düşüncələrində gəzdirdiyi xəstə xülyanın davamıdır. Ermənistanın keçmiş rəhbərliyi ilə indiki hakimiyyət arasındakı qalmaqalın əsasını kürsü davası təşkil edir. Azərbaycana və Türkiyəyə qarşı düşmənçilik münasibətində isə onların xəstə düşüncəsində heç bir fərq yoxdur".

Ehtiyatda olan polkovnik Eray Guçlüer vurğulayıb ki, işğalçı Ermənistan Türkiyə və Azərbaycan ilə əlaqələr qurmaq, o cümlədən sülhsevər dünya ictimaiyyətinin sağlam bir tərkib hissəsi olmaq istəyirsə, ilk növbədə, Xocalı soyqırımını tanımalı və bu bəşəri cinayəti törədənlərin beynəlxalq məhkəmələrə cəlb olunmasını təmin etməlidir. Bu isə şərt deyil. Müasir dünyanın, beynəlxalq hüququn tələbidir.

# General-polkovnik Nəcməddin Sadıkov NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı ilə görüşüb



Dekabrın 11-də Azərbaycan Respublikası Müdafiə nazirinin birinci müavini - Silahlı Qüvvələrin Baş Qərargah rəisi general-polkovnik Nəcməddin Sadıkov NATO Müttəfiq Qüvvələrinin Avropadakı Baş komandanı (SACEUR) general Körtis Skaparrottinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşüb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, general-polkovnik N.Sadıkov Şimali Atlantika Alyansı ilə hərbi əlaqələrin inkişaf etdiyini qeyd edərək Azərbaycan ilə NATO arasında hərbi əməkdaşlıq, o cümlədən Azərbaycan Ordusunun müxtəlif proqramlar çərçivəsində fəaliyyəti, Əfqanıstandakı Qətiyyətli Dəstək Missiyasına verilən töhfə haqqında ətraflı danışıb.

Bölgədəki hərbi-siyasi vəziyyətə toxunan general-polkovnik N.Sadıkov Dağlıq Qarabağ münaqişəsinin Azərbaycanın ərazi bütövlüyü və beynəlxalq hüquq normaları çərçivəsində həllinə nail olunmasının vacibliyini vurğulayıb.

NATO-nun ölkəmizin ərazi bütövlüyü və suverenliyinə dair mövqeyini yüksək qiymətləndirən general-polkovnik N.Sadıkov Alyansın bundan sonra da bu istiqamətdə səylərinin davam edəcəyinə əminliyini ifadə edib.

Öz növbəsində general K.Skaparotti Azərbaycanın Alyansın etibarlı tərəfdaşı olduğunu xüsusi qeyd edərək, ölkəmizin terrorizmlə mübarizədə iştirakını, sülhməramlı əməliyyatlar üçün yük daşımalarına önəmli töhfə verdiyini, Əfqanıstanda həyata keçirilən əməliyyatlarda göstərilən peşəkarlığı yüksək qiymətləndirib.

General K.Skaparotti NATO-nun Azərbaycanın ərazi bütövlüyünü, müstəqilliyini və suverenliyini dəstəklədiyini bildirərək Alyansın Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu diqqətə çatdırıb.

Qonaq səmimi qəbula və göstərilən qonaqpərvərliyə, həmçinin sabah Bakıda Rusiya Federasiyası Silahlı Qüvvələrinin Baş Qərargah rəisi ilə görüşün keçirilməsi üçün yaradılan şəraitə görə Azərbaycan dövlətinin rəhbərliyinə minnətdarlığını bildirib.

Görüşdə tərəflər qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə fikir mübadiləsi aparıblar.

AZƏRBAYCAN ORDUSU

*"Vətənə, xalqa və dövlətə xidmət ömrümüzün mənasıdır"*

# "Azərbaycan Respublikasına xidmət edirəm!"

*Döyüş hazırlığının əsas şərtlərindən biri də şəxsi heyətin mənəvi-psixoloji hazırlığının yüksək olmasıdır. Bu istiqamətdə aparılan işləri Müdafiə naziri general-polkovnik Zakir Həsənov daim diqqət mərkəzində saxlayır. Yüksək döyüş ruhuna malik olan ordunun qarşısında heç bir düşmən tab gətirə bilməz. Müasir silahlardan məharətlə istifadə etməyi bacaran, Vətənə sonsuz sevgisi olan, qələbə ruhunda xidmət edən şəxsi heyətə malik ordu, ən qüdrətli ordudur.*





Son illərə nəzər salsaq görərik ki, istər arxa cəbhədə, istərsə də ön cəbhədə yerləşən bölmələrimizdə hər cür şərait yaradılıb. Hansı şəraitdə xidmət etməsindən asılı olmayaraq şəxsi heyətin sosial təminatı ən yüksək səviyyəyə çatdırılıb. Əsgərlər keyfiyyətli qidalarla qidalanır, fəslə uyğun geyimlə təmin olunurlar. Bununla yanaşı, şəxsi heyətin asudə vaxtları səmərəli təşkil olunur, istirahətləri üçün şərait yaradılır.

Bunların hamısı döyüş ruhuna birbaşa təsir edən amillərdəndir. Bu amillər arasında ən başlıcası yuxarı komandanlıq tərəfindən şəxsi heyətə göstərilən diqqət və qayğıdır. Müdafiə naziri və nazirliyin rəhbər heyəti mütəmadi olaraq ön xətdə yerləşən bölmələrə yollanır, şəxsi heyətin sosial şəraiti ilə maraqlanır, xidmətin təşkilində fərqlənən hərbi qulluqçuları mükafatlandırırlar. Bu da hərbçilərimizə yüksək əhval-ruhiyyə aşılayır, vətənpərvərliklərini daha da artırır. Gördüyün işə qiymət verildiyini görəndə daha da həvəslənirsən, göstərilən etimadı doğultmaq üçün əlindən gələni əsirgəmirsən.

Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin tapşırığına əsasən, cəbhəboyu zonada olan Müdafiə naziri general-polkovnik Zakir Həsənov ön xətt bölmələrinin döyüş hazırlıq vəziyyətini yoxlayıb. Şəxsi heyətlə görüşən Müdafiə naziri bölmələrin maddi-texniki təminatı, silah-sursat və hərbi texnika ilə təchizatı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı, həmçinin sosial məişət şəraiti ilə tanış olub, xidmətdə fərqlənən və döyüş hazırlığında yüksək nəticələr əldə etmiş hərbi qulluqçuları mükafatlandırıb.

"Ən müasir silahı da idarə edən əsgərdir", - deyən Müdafiə nazirinin bölmələri yoxlaması, şəxsi heyətə yüksək diqqət və qayğı göstərməsi onların döyüş ruhuna müsbət təsir edir. Bu qətiyyətli addımlar, müasir silah və texnika ilə təmin olunan ordumuzun gücünün günü-gündən artmasının göstəricisidir. Budəfəki görüşlər zamanı Müdafiə nazirinin təltif etdiyi hərbi qulluqçulardan biri də çavuş Ramil Abbasovdur. Ona xidmətdə göstərdiyi uğurlara görə "Azərbaycan Ordusunun 100 illiyi (1918-2018)" Yubileyi medalını Müdafiə naziri şəxsən təqdim edib.

Əslən Ağdam rayonundan olan çavuş Ramil Abbasov



hərb peşəsini öz istəyi ilə seçdiyini və ürəkdən bağlılığını bildirdi. O, düşüncələrinə sarılaraq keçirtdiyi hissləri bizimlə bölüşdü:

- Hər birimiz yaxşı bilirik ki, şərəfli və çətin peşə seçmişik. Bizə Vətən torpaqları əmanət edilib. Bu vəzifə müqəddəsdir. Hər birimiz vəzifəmizin öhdəsindən layiqincə gəlir, torpaqlarımızı göz bəbəyi kimi qoruyuruq. Düşmənə aman verməzrik ki, təxribata əl atsın, əhalimizə qarşı silah işlətsin. Xidmətimizlə Ali Baş Komandanımızın, Müdafiə nazirimizin etimadını doğrultmaq üçün var qüvvəmizlə çalışırıq. Müdafiə naziri bizimlə görüşə gəldi. Xidmətimizlə, şəraitimizlə maraqlandı. Döyüş hazırlığımızı yoxladı. Uğurlu xidmətimə görə mənə də medal təqdim etdi. Həmin gün həm də mənim doğum günüm idi. Bu ad günümü və aldığım hədiyyəni heç vaxt unutmaram. Həyatım boyu aldığım ən qiymətli və dəyərli hədiyyə olacaq mənə. Ona görə ki, uşaqlıqdan arzusunda olduğum, sevgi bəslədiyim peşə sahibi kimi vəzifələrimin öhdəsindən uğurla gəldiyim üçün cənab nazirimiz tərəfindən mükafatlandırılmışam. Bir insan üçün bundan sevincli gün ola bilməz. Rəhbərlik tərəfindən belə qayğı görmək hər birimizə müsbət təsir edir, döyüş ruhumuzu daha da artırır. Mən arzu edirəm ki, Ali Baş Komandanımız İlham Əliyevin döyüş əmri ilə işğal altında olan torpaqlarımızın azad olunması uğrunda savaşda şücaət göstərim.

Ramil, həmçinin 10 illik qüsursuz xidmətə görə 3-cü dərəcəli medala və hərbi hissə komandiri tərəfindən fəxri fərmana da layiq görülüb. Uğurlu xidməti, komandirləri tərəfindən dəfələrlə mükafatlandırılması çavuş R.Abbasovun Vətənini ən ülvi hisslərlə sevdiyinin, dövlətinə və dövlətçiliyinə sadiqliyinin, seçdiyi peşəyə ürəkdən bağlılığının göstəricisidir. İki övlad atası olan Ramil oğlunun da hərbçi olmaq istəyindən söz açır. "Vətənpərvərliyim, peşəmə olan sonsuz sevgim ailəmə də təsirsiz ötüşməyib. Altı yaşlı oğlumun hərb peşəsinə böyük marağı və sevgisi var. Bütün bayramlarda mənimlə birgə buraya gəlir, əsgərlərlə bir arada olmaqdan xoşbəxt olur. Bir dəfə onun taxtadan avtomat düzəltdiyini gördüm. "Bunu neynirsən oğlum? soruşanda, "mən də əsgər olub torpaqlarımızı qoruyacam, düşmənlərimizi öldürəcəyəm", - dedi. Onun bu istəyi məni çox sevindirdi, qürurlandırdı. Bu gün hər bir azərbaycanlı kimi, mənim də ürəyim bir arzu ilə döyünür - tezliklə ərazi bütövlüyümüzü təmin edək, düşmənlərimizi ata-baba yurdlarımızdan qovaq, övladlarımıza Qarabağlı Azərbaycanı əmanət edək.

Ürəyi Vətən sevgisi ilə döyünən, müsbət əxlaqi keyfiyyətlərə malik olan, əsgər Vüqar İsmayıllı da nizam-intizamına, verilən tapşırıqların öhdəsindən müvəffəqiyyətlə gəldiyinə görə qol saatı ilə mükafatlandırılıb. "Azərbaycan Respublikasının Müdafiə naziri cənab general-polkovnik Zakir Həsənovun bu gün buraya gəlib bizimlə görüşməsi hər birimizi sevindirdi. Müdafiə nazirimiz tərəfindən qiymətli hədiyyə alanlardan biri də mən oldum. Bu gün həyatımda ən unudulmaz gündür. Ön xətdə xidmət edən hərbi qulluqçu üçün Müdafiə naziri tərəfindən hədiyyə ilə təltifolunma əvəzolunmaz bir hissdir. Bu hədiyyənin aldığım hədiyyələr arasında özünəməxsus yeri olacaq. Layiq görüldüyüm bu qiymətli hədiyyə mənim məsuliyyətimi daha da artırır. Bu gün hər bir Vətən müdafiəçisinin bir arzusu var: işğal altında olan torpaqlarımızı azad etmək. O gün uzaqda deyil. İstər sülh yolu, istərsə də döyüş yolu ilə tarixi ədalət bərpa ediləcək. Yurdlarından didərgin düşən həmvətənlərimiz öz ata-baba ocaqlarına yenidən qayıdacaqlar."

Xidməti vəzifələrinin öhdəsindən uğurla gələrək nümunəvi xidmətləri ilə seçilən müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçuları baş çavuş Samir Məmmədov, kiçik çavuş Rizvan Məmmədov və Rahim İsmayilov da Müdafiə naziri general-polkovnik Zakir Həsənov tərəfindən medalla təltif olunmağın fərəhini yaşayanlardandırlar.

"Cənab nazirimizin və rəhbərliyin ordumuza olan diqqət və etimadının bu gün bir daha şahidi olduq. Müdafiə nazirimiz bölməmizin xidmətdə və döyüş hazırlığında yüksək nəticələr göstərmiş hərbi qulluqçularını qiymətli hədiyyələrlə, medallarla təltif etdi. Həmin hərbi qulluqçular arasında bizim də olmağımız əvəzolunmaz bir stimuldur. Bu gün xidmətimizin ən yaddaqalan günüdür. Hər kəs mükafatlandırılmağı sevir. Lakin Azərbaycan Respublikasının Müdafiə naziri cənab general-polkovnik Zakir Həsənov tərəfindən təqdim olunan mükafatın çox xüsusi yeri var. Şəxsi heyətə Müdafiə naziri xidmətin düzgün təşkili ilə bağlı müvafiq tapşırıqlarını verdi. Biz də öz növbəmizdə onun bizə göstərdiyi etimadı doğrultmağa borcluyuq. Ali Baş Komandanımız ordumuzun gücünü hər zaman çıxışlarında vurğulayır. Müasir silahlar, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılması rəhbərliyin ordumuza olan yüksək diqqətinin təcəssümüdür. Xidmət etdiyimiz bölmədə gündəlik fəaliyyətin təşkili üçün hər cür şərait yaradılıb. Bu gün Azərbaycan Ordusunun hərbçiləri olaraq düşmənlə təmas xəttində dövlətimiz və xalqımız qarşısında müqəddəs borcumuzu inamla yerinə yetiririk. Bu şərəfli işin öhdəsindən uğurla gəlməyə bizə heç bir qüvvə mane ola bilməz. Müasir ordumuz bu gün işğal altında olan torpaqlarımızı azad etmək iqtidarındadır. Bu gün 100 yaşlı, qüdrətli ordunun nümayəndəsi olmaqdan, ön xətdə xidmət etməkdən və bu müqəddəs vəzifənin öhdəsindən uğurla gələrək mükafatlandırılmaqdan xoşbəxtik".

Ölkə başçısı, Ali Baş Komandan İlham Əliyev orduda xidmət edən hər bir şəxsə yüksək qiymət verərək çıxışlarında dəfələrlə deyib ki, Vətəni müdafiə etməyə çalışan hər bir vətəndaş, hər bir gənc bizim üçün əziz, qiymətli və dəyərlidir. Bu gün Ali Baş Komandanın qarşıya qoyduğu tapşırıqları uğurla yerinə yetirən Müdafiə naziri general-polkovnik Zakir Həsənovun hərbi qulluqçulara yüksək qiymət verdiyinin, diqqət və qayğı göstərdiyinin bir daha şahidi oluruq. Şəxsi heyət də onlara göstərilən qayğıdan fərəhlənir, daha da nümunəvi xidmət etməyə çalışır, Vətən uğrunda hər an döyüşə hazır olduğunu sübut edir.

**Leytenant**
**Fuad CƏFƏROV,**
**leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu"**

# “Xatirələrdə, nəğmələrdə yaşayır Öndər” adlı tədbir keçirilib




*Yorulmaz fəaliyyəti və zəngin həyat yolu ilə yaddaşlarda əbədiyyət qazanmış xalqımızın ümummilli lideri Heydər Əliyevin vəfatının 15-ci ildönümü ilə əlaqədar Müdafiə Nazirliyinin "Heydər Əliyev ideyalarına sadiqik" devizi altında keçirdiyi ümumordu xatirə tədbirləri aylığı davam edir. Bütün xalqımız kimi, Azərbaycan Ordusunun şəxsi heyəti də dövlətçilik tariximizdə əvəzolunmaz şəxsiyyət, müqayisəedilməz siyasət korifeyi, müdrik və qətiyyətli dövlət xadimi, yenilməz sərkərdə, müasir Azərbaycan Ordusunun memarı, yeni Azərbaycanımızın qurucusu ulu öndər Heydər Əliyevi bir daha sonsuz ehtiramla yad edir, dahi şəxsiyyətin müqəddəs ruhu qarşısında sədaqət andı içir.*



Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, "N" hərbi hissəsində keçirilən "Xatirələrdə, nəğmələrdə yaşayır Öndər" adlı tədbir də əbədiyaşar Ali Baş Komandanımızın xatirəsinə hörmət və ehtiramın təcəssümünə çevrilib.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndərin hərbi hissənin qərargahı qarşısındakı abidəsini ziyarət edib, önünə gül dəstələri düzüblər.

Əsgər klubunda təşkil olunan tədbirdə əvvəlcə Vətən, xalq, dövlət qarşısında titanik xidmətləri olan, dünyanı heyrətə gətirən dahi liderimizin, eləcə də Azərbaycanın müstəqilliyi, ərazi bütövlüyü uğrunda canından keçən igid oğul və qızlarımızın xatirəsi bir dəqiqəlik sükutla yad edilib, Dövlət himni ifa olunub.

Layihənin müəllifi, Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, polkovnik Abdulla Qurbani geniş məruzə ilə çıxış edərək Ümummilli Liderlə bağlı xatirələrini bölüşüb. A.Qurbani hələ ötən əsrin 90-cı illərinin əvvəllərində blokada şəraitində yaşayan Naxçıvanın qanlı-qadalı günlərində əhalinin ərzaq və yanacaqla sınağa çəkildiyi, Ermənistan silahlı bölmələrinin muxtar respublikanı intensiv atəşə tutduğu bir dövrdə Heydər Əliyevin Naxçıvanın və naxçıvanlıların təhlükəsizliyi, xilası naminə həyata keçirdiyi operativ və fövqəladə tədbirlərdən danışıb.

Qeyd olunub ki, məhz 1993-cü ildə xalqın təkidli tələbi ilə Ulu Öndərin Azərbaycanda hakimiyyətə qayıdışından sonra ölkəmiz vətəndaş müharibəsi təhlükəsindən, dövlət çevrilişinə cəhdlərdən xilas olub. Milli Orduda təxirəsalınmaz islahatlar aparılıb, ölkə həyatında yeni mərhələnin başlanğıcı qoyulub, cəbhədə ilk uğurlar qazanılıb, xalqın güzəranı gündən-günə daha da yaxşılaşıb. Heydər Əliyev siyasəti bu gün də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Heydər Əliyev ideyaları yaşayır və xalqımızı daha xoşbəxt gələcəyə doğru aparır.

Polkovnik Mehman Kərimov Ulu Öndərin dəfələrlə bu hərbi hissədə olduğunu, şəxsi heyətlə görüşdüyünü, göstəriş, tövsiyə və məsləhətlər verdiyini deyib. M.Kərimov 1994-cü il yanvarın 24-də Heydər Əliyevin burada yaradılan yeni hərbi hissənin şəxsi heyətini cəbhəyə yola salarkən dediyi sözlərin bu gün də aktual olduğunu vurğulayıb. Həmin vaxt Heydər Əliyev yolasalma mərasimində deyib: "Bilin ki, sizin hər birinizin arxasında böyük Azərbaycan ölkəsi durmuşdur. Bilin ki, hər biriniz öz doğma Vəteninizi, öz ananızı, atanızı, bacınızı, qardaşınızı müdafiə etmək üçün ordu sıralarına gəlmisiniz və indi cəbhəyə yola düşürsünüz. Bilin ki, sizin hər bir uğurlu addımınız Azərbaycan Respublikasının müstəqilliyinə və ərazi bütövlüyünə kömək edəcəkdir. Bilin ki, ümumi qələbəmiz sizin hər birinizin fəaliyyətindən, qəhrəmanlığından asılıdır".

Respublikanın Xalq artisti Niyaməddin Musayev unudulmaz böyük şəxsiyyətin digər sahələrlə yanaşı, mədəniyyətə də göstərdiyi diqqət və qayğıdan, mədəniyyət xadimlərinin yaradıcılıqlarının inkişafı üçün yaratdığı şəraitdən bəhs edib, hələ 1991-ci ildə Naxçıvanda Ümummilli Liderlə tarixi görüşlərini yada salıb. O, məhz Heydər Əliyevin sayəsində fəxri adlar və "Şöhrət" ordeni ilə təltif olunduğunu minnətdarlıqla qeyd edib.

Tədbir iştirakçıları Xalq artistinin Ulu Öndərə həsr etdiyi "El atası", "Ata", "Mənim Prezidentim", "Qurtuluş" və dahi Öndərimizin sevə-sevə dinlədiyi "Dünya sənin, dünya mənim" mahnısını böyük maraqla dinləyiblər.

Polkovnik İlqar Lətifov Heydər Əliyevin azərbaycanlı peşəkar hərbçilərin yetişməsindəki müstəsna xidmətlərindən danışıb. O, 1971-ci ildə - sovet ideologiyasının tüğyan etdiyi bir vaxtda böyük uzaqgörənliklə indiki Cəmşid Naxçıvanski adına Hərbi Liseyin yaradılmasını və bu məktəbin məzunlarının sovet ittifaqının demək olar ki, bütün xüsusi təyinatlı təhsil müəssisələrində müxtəlif hərbi ixtisaslara yiyələndiklərini tarixi hadisə kimi dəyərləndirib.

Azərbaycan Milli Elmlər Akademiyası Folklor İnstitutunun "Dədə Qorqud" ansamblının rəhbəri, respublikanın Əməkdar artisti, zabit anası Nuriyyə Hüseynova ilk dəfə 11 yaşında Ümumittifaq xalq yaradıcılıq festivalının respublika müsabiqəsində Heydər Əliyev Sarayında gənclərimizin böyük hamisinin qarşısında çıxış etdiyini xatırlayaraq deyib: "Bir çox illər keçdikdən sonra Azərbaycan dövlət qədim musiqi alətləri ansamblı akademik Yusif Məmmədəliyevin 90 illik yubiley tədbirində çıxış edərkən Ulu Öndər yenidən ifamı dinlədi. Dahi şəxsiyyət 14 il əvvəl gördüyü və Bülbül adına orta ixtisas musiqi məktəbinə daxil olmağım üçün tapşırıqlar verdiyi həmin hörüklü məktəbli qız olduğumu xatırladı".

Əməkdar artist Ulu Öndərin xatirəsinə həsr etdiyi yeni ifalarını səsləndirib.

Hərbi qulluqçular Əhməd Abdullayev, Sevinc İbrahimova, Vüqar Həbibov çıxışlarında Azərbaycan dövləti və xalqı var olduqca Ulu Öndərimizin xatirələrdə, ürəklərdə, nəğmələrdə yaşayacaqlarını vurğulayıblar.

Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin solistləri Ağabala Abdullayev, Günay Qasımova, Elçin Məmmədov, Leyla Qəhrəmanova, Vüsal Ağayev Ulu Öndərin əziz xatirəsinə həsr olunan və dahi rəhbərin sevdiyi xalq mahnılarını ifa ediblər.

Tədbir Heydər Əliyevin səsləndirdiyi "Azərbaycan" şeirinin və "Azərbaycan Bayrağı" mahnısının sədaları altında başa çatıb.



# Xalqı üçün yaşayanlar unudulmur

*İbtidai sinifdə oxuyanda "Heç kəs unudulmur, heç nə yaddan çıxmır" mövzusunda inşa yazmışdıq. Onda yazmışdım ki, xalq yaxşılıqları, Vətənin qeydinə qalanları heç bir zaman unutmur. Belə insanlardan biri də böyük tarixi şəxsiyyət Heydər Əliyev idi. O, Sovetlər dönəmində Azərbaycan üçün yaşayırdı, müstəqilliyimiz bərpa olunduqdan sonra da.*

Heydər Əliyev əsl vətəndaş idi. Elinə-obasına bağlı. Səməd Vurğunun "Azərbaycan" şeiri onu duyğulandırdı - bu Azərbaycana sevginin təzahürüdü...

Heydər Əliyev 1990-cı ilin 20 yanvarında Sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciənin səhərisi Azərbaycanın Moskvadakı daimi nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etdi. Bu, o dövr üçün böyük cəsarət demək idi. Bu cəsarət xalqa sevgi idi. Xalqın təkidli tələbiylə hakimiyyətə qayıdan Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi. İyunun 24-də Ali Sovetin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. O, 1998-ci il oktyabrın 11-də keçirilən növbəti prezident seçkilərində yenidən Azərbaycan Respublikasının Prezidenti seçildi.

Ümummilli Lider həm də uşaqların dostu idi. Onları sevir, əzizləyir, qoruyur və onlara xalqın gələcəyi kimi baxırdı. Ulu Öndər valideynləri olmayan bir uşağın əlifba bayramında da iştirak etmişdi. Bu gün dahi şəxsiyyət aramızda olmasa da, daim qəlblərdə yaşayır və yaşayacaq. Xalq ulu öndər Heydər Əliyevi heç zaman unutmayacaq, Heydər baba ürəklərdə əbədi yaşayacaqdır!..

Heydər Əliyev böyük tarixi şəxsiyyət idi. O, Azərbaycanda ordu quruculuğunun uğurlarının başlanğıcını qoydu, respublikanın iqtisadi inkişafını təmin edən müqavilələrin imzalanmasına nail oldu. Azərbaycan dünya birliyində öz layiqli yerini tutdu...

**Hüsniyyə İDRİSOVA,**
**BSU-nun II kurs tələbəsi**

Mehdi Hüseynzadə - 100

# “Bir nəfər hamı üçün, yaxud Mixaylonun qisası”




*"Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 iyun tarixli Sərəncamının icrası ilə əlaqədar Müdafiə, Təhsil və Mədəniyyət nazirlikləri tərəfindən təsdiq olunmuş plana əsasən ölkəmizdə silsilə tədbirlər keçirilir.*

Yubiley tədbirləri çərçivəsində Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin Heydər Əliyev muzey-lektoriyasında Azərbaycan Dövlət Tərcümə Mərkəzinin nəşr etdirdiyi "Bir nəfər hamı üçün, yaxud Mixaylonun qisası" kitabının təqdimatı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, təqdimat mərasimində Bakı Qarnizonundakı hərbi hissələrin, qoşun növlərinin, xüsusi təyinatlı təhsil müəssisələrinin, veteran təşkilatlarının nümayəndələri, Mehdi Hüseynzadənin ailə üzvləri, eləcə də Azərbaycan Dövlət Tərcümə Mərkəzinin əməkdaşları iştirak ediblər.

Əvvəlcə Vətən uğrunda şəhidlik zirvəsinə ucalmış oğul və qızlarımızın xatirəsi qəhrəman döyüşçünün timsalında bir dəqiqəlik sükutla yad olunub.

Əməkdar incəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü, Müdafiə Nazirliyinin zabiti polkovnik Abdulla Qurbani xalqımızın ümummilli lideri Heydər Əliyevin kəlamlarını xatırlayaraq qeyd edib ki, xalq öz qəhrəmanlıq tarixini öyrənmədən, qiymətləndirmədən qəhrəmanlar yetişdirə bilməz. “Gələcək qəhrəmanlıqların, igidliklərin təməli isə tariximizdə, atalarımızın keçdiyi şanlı döyüş yolundadır. Bu mənada təkcə ölkəmizdə deyil, Sloveniya, İtaliya, Fransa və Avropanın digər ölkələrində də yenilməz qəhrəman kimi tanınan Mehdi Hüseynzadə bugünkü nəsillər üçün nümunədir. Buna görə də Mixaylo qəhrəmanlıq məktəbi daha dərindən öyrənilməlidir.”

A.Qurbani diqqətə çatdırıb ki, Mehdi Hüseynzadə və onun qəhrəmanlıqları haqqında neçə-neçə kitablar yazılıb, filmlər çəkilib, təsviri və tətbiqi sənət əsərləri yaradılıb, abidələr ucaldılıb, xatirəsi əbədiləşdirilib. Bu il anadan olmasının 100 illiyinin qeyd edildiyi Mixaylo xalqımızın qəlbində 26 yaşlı qəhrəman kimi xatirələrdə, ürəklərdə yaşayır.

Tədbirdə qeyd olunub ki, Mehdi Hüseynzadə haqqında həqiqətlərin üzə çıxmasında, layiq olduğu Sovet İttifaqı Qəhrəmanı fəxri adının ölümündən 13 il sonra verilməsində, ümumiyyətlə, Mixaylonun adının əbədiləşdirilməsində, onun faşizmə qarşı mübarizədə göstərdiyi qəhrəmanlığın təbliğində xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəsna xidmətləri var. Ulu Öndərin siyasətini davam etdirən dövlətimizin başçısı İlham Əliyev görkəmli sərkərdələrimizin, hərb xadimlərimizin, qəhrəmanlarımızın adlarının əbədiləşdirilməsinə və yubileylərinin dövlət səviyyəsində qeyd olunmasına xüsusi diqqət yetirir. Prezident İlham Əliyevin Sloveniya Respublikasına rəsmi səfəri zamanı Novo Qoritsa şəhərində Mehdi Hüseynzadənin xatirə muzeyinin açılışında iştirakı, ictimaiyyətlə görüşdə geniş nitq söyləməsi Azərbaycan-Sloveniya əlaqələrinin genişlənməsinin, ölkələrimiz arasında dostluq və qardaşlıq münasibətlərinin inkişafının təsdiqidir. Məhz bu dostluğun təməlində Mehdi Hüseynzadə kimi igid həmvətənimizin qəhrəmanlıqları dayanır. Sloveniyalılar da Azərbaycanın igid oğluna vəfa borcu olaraq Moribor şəhərində müharibə qurbanlarının xatirəsinə həsr edilən Dobrava memarlıq park kompleksinin ərazisində Xocalı soyqırımı qurbanlarına xatirə lövhəsi ucaldıblar.

Sonra tədbir iştirakçılarına Azərbaycan Dövlət Tərcümə Mərkəzinin Mehdi Hüseynzadənin 100 illik yubileyinə töhfəsi olan, Sloveniya yazıçısı, şair, musiqiçi, bəstəkar Peter Amaliettinin "Bir nəfər hamı üçün, yaxud Mixaylonun qisası" kitabı təqdim edilib.

Azərbaycan Dövlət Tərcümə Mərkəzinin aparat rəhbəri Yaşar Əliyev nəşr haqqında məlumat verərək diqqətə çatdırıb ki, bu publisistik roman igid həmyerlimizin həyatından və döyüş yolundan bəhs edir. Tarixi romanları, eləcə də İkinci Dünya müharibəsi haqqında publisistik yazıları ilə şöhrət qazanmış, İslam dini və mədəniyyəti haqqında sanballı elmi-tədqiqat əsərlərinin müəllifi olan P.Amalietti qəhrəman eloğlumuzun uşaqlıq, gənclik illərini, Böyük Vətən müharibəsində onunla bağlı olan və indiyədək qaranlıq qalan qəhrəmanlıq səhifələrini oxucuların gözləri qarşısında bir sənətkar ustalığı ilə açır. Əfsanəvi partizanın keçdiyi döyüş yolu uzun illər ərzində toplanmış nadir faktlar əsasında əsərdə geniş işıqlandırılıb, onun silah və əqidə dostlarının fəaliyyətindən ətraflı bəhs edilib. Nəşrdə M.Hüseynzadənin müharibə illərində sloven, italyan, sovet partizanlarını heyran qoyan, faşistləri vahiməyə salan qəhrəmanlıq nümunələri ilə tanış oluruq.

Bildirilib ki, yazıçının yorulmaz tədqiqatlarının bəhrəsi olan kitabda xüsusi xidmət orqanlarının arxiv sənədlərindən, şahidlərin xatirələrindən, sənədli-publisistik əsərlərdən geniş istifadə edilib. Müəllif Mehdi Hüseynzadənin əsirlikdə çəkdiyi əziyyətlərə, daxili iztirablara rəğmən faşistlərə boyun əymədiyini, ən yüksək əxlaqi və iradi keyfiyyətlərə malik olduğunu bədii dillə təsvir edir, çətin anlarda əsir yoldaşlarına mənəvi dayaq olduğunu göstərir, Azərbaycan legionuna üzv yazılmasının gerçək səbəblərini açıqlayır.

Sonra əsərin Azərbaycan dilinə tərcüməçisi Fərhad Abdullayev tədbir iştirakçılarına təqdim olunub.

İmzasını oxucuların yaxşı tanıdığı peşəkar tərcüməçi F.Abdullayev deyib: "Mən Sloveniya yazıçısının bu əsərini Mixaylonun ana dilinə seve-seve tərcümə etdim. Əvvəla, bu əsər başqa bir xalqın məşhur yazıçısının Azərbaycanın igid oğlu haqqında yaratdığı ədəbi abidədir. İkincisi isə kitabda qəhrəman Mixaylo barədə bildiyimiz və bilmədiyimiz bir çox məqamlar yenidən araşdırılıb, müharibə illərində Sloveniyada baş verən ictimai-siyasi proseslərə qiymət verilib. Mixaylo həm faşistlərə qarşı mübarizə aparan partizan, həm də Sloveniya milli-azadlıq hərəkatının sadiq əsgəri kimi təqdim edilir. Yazıçı öz qəhrəmanının dili ilə Azərbaycan və Sloveniya arasında tarixi paralellik aparır, hər iki xalqın təcavüzə, soyqırımına məruz qaldığına, azadlıq və müstəqillik uğrunda mübarizə apardığına dair konkret faktlar göstərir".



Tərcüməçi F.Abdullayev əfsanəvi qəhrəmanın dəfn mərasimində komandir Dulenin vida nitqini həm göz yaşları içərisində, həm də böyük qürurla tərcümə etdiyini vurğulayıb. Bildirib ki, komandirin vida nitqində deyiri "Məzarında rahat yat, əziz dost! Mütərəqqi bəşəriyyət əfsanəvi qəhrəmanlıqlarına, insanlara sevginə görə sənə daim minnətdar olacaq! Qisasını düşməndən mütləq alacağıq, Mixaylo!" sözləri kitabın leytmotivini təşkil edir.

Silahlı Qüvvələrin Təlim və Tədris Mərkəzinin rəisi general-mayor Gəray Bağırov Mehdi Hüseynzadənin 100 illik yubileyi ərəfəsində bu kitabın nəşrində xidməti olan şəxslərə, Azərbaycan Dövlət Tərcümə Mərkəzinin kollektivinə Müdafiə Nazirliyinin rəhbərliyi adından minnətdarlıq edib. O, kitabın Azərbaycan Ordusunun şəxsi heyətinin əcdadlarımızın qəhrəmanlıq ənənələri ruhunda tərbiyə olunmasında, onların mənəvi-psixoloji hazırlığının, döyüş ruhunun, vətənpərvərlik hissinin daha da yüksəlməsində əhəmiyyətini xüsusi vurğulayıb.

Respublika Müharibə, Əmək və Silahlı Qüvvələr Veteranları Təşkilatının məsul işçisi, Əfqanıstan və Qarabağ müharibələri veteranı, ehtiyatda olan polkovnik Aqil Haqverdiyev çıxışında ölkə rəhbərliyinin hərb tarixinin öyrənilməsinə və təbliğinə xüsusi önəm verdiyini deyib.

Sonra Həzi Aslanov adına Mərkəzi Zabitlər Evinin yaradıcı qrupu Mehdi Hüseynzadənin kitabda təqdim olunan şeirləri əsasında hazırlanan ədəbi-bədii kompozisiya ilə çıxış edib.

Mehdi Hüseynzadənin bacısı oğlu Mehdi Əzizbəyov Azərbaycan Prezidentinə, Müdafiə Nazirliyinin rəhbərliyinə, həmçinin Sloveniya yazıçısının əsərini Azərbaycan dilinə tərcümə edib oxuculara təqdim edən Azərbaycan Dövlət Tərcümə Mərkəzinin əməkdaşlarına qəhrəmanın ailə üzvləri adından təşəkkürünü bildirib.

Tədbirin sonunda kitabın nəşrində xidmətləri olan Fərhad Abdullayevə və Yaşar Əliyevə Müdafiə Nazirliyinin hədiyyəsi, iştirakçılara isə kitabın nüsxələri təqdim edilib.

Xatırladaq ki, "Mehdi Hüseynzadənin 100 illik yubileyinin keçirilməsi haqqında" Azərbaycan Prezidentinin 2018-ci il 23 iyun tarixli Sərəncamında Mehdi Hüseynzadənin 1941-1945-ci illər müharibəsində faşizmə qarşı mübarizədə apardığı çoxsaylı uğurlu kəşfiyyat əməliyyatları və nümayiş etdirdiyi misilsiz hərbi şücaətləri ilə böyük şöhrət qazandığı və Azərbaycan xalqının zəngin tarixi hünər salnaməsinə şanlı səhifələr yazdığı qeyd olunub. Sənəddə xüsusi vurğulanıb ki, yüksək əxlaqi keyfiyyətlərə malik cəsur kəşfiyyatçının rəşadət dolu şərəfli həyat yolu bu gün Vətənimizin sərhədlərini layiqincə qoruyan və işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan mətin Azərbaycan əsgəri üçün parlaq qəhrəmanlıq nümunəsidir.



# Əlahiddə Ümumqoşun Ordunun HHM bölmələrinin döyüş atışlı taktiki-xüsusi təlimləri keçirilib



*Əlahiddə Ümumqoşun Ordunun Hava Hücumundan Müdafiə (HHM) hissə və bölmələrinin döyüş atışlı taktiki-xüsusi təlimləri keçirilib.*

Təlimlər zamanı həyəcan siqnalı ilə qaldırılan bölmələr şərti düşmənin hava zərbələrinin dəf edilməsi, verilmiş tapşırığa görə qərar qəbuletmə prosesinə uyğun qərargahların fəaliyyətlərini məşq ediblər.

Hava düşmənini təqlid etmək üçün təlimlərə aviasiya bölmələri də cəlb olunub. Təlimlərin sonunda ümumqoşun birləşmələrinin HHM bölmələri döyüş atışları icra ediblər.



**Leytenant**
**Nəriman NƏCƏFOV,**
**"N" hərbi hissəsi**

*Qəhrəmanlıq tarixi*

# Partizan Mixaylo

*Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin anadan olmasının 100 illik yubileyinin keçirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 23 iyun tarixli Sərəncamının icrası ilə əlaqədar Azərbaycan Ordusunda silsilə tədbirlər keçirilir. Hərb Tarixi Muzeyində də bu münasibətlə yubiley tədbiri keçirildi.*

Tədbirdə Müdafiə Nazirliyinin idarə və təşkilatlarından nümayəndələr, Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin yaxınları, "Art Accent" studiyasının və kütləvi informasiya vasitələrinin əməkdaşları iştirak etdilər.

Ümummilli liderimiz Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Tədbiri Hərb Tarixi Muzeyinin rəisi ehtiyatda olan polkovnik Əzizağa Qənizadə açaraq bildirdi ki, hərb tariximizin qəhrəmanlıq səhifələrində yer tutan mərd Vətən oğullarımızdan biri də Sovet İttifaqı Qəhrəmanı Mehdi Hüseynzadədir. "Mehdi Hənifə oğlu Hüseynzadə 22 dekabr 1918-ci ildə Bakının Novxanı kəndində anadan olmuşdur. 1936-cı ildə Azərbaycan Dövlət Rəssamlıq məktəbini bitirmiş, Leninqradda (indiki Sankt-Peterburq) Xarici Dillər İnstitutunda və Bakıda - indiki Azərbaycan Dövlət Pedaqoji İnstitutunda təhsil almışdır. Böyük Vətən müharibəsinin başlanması ilə əlaqədar, 1941-ci ilin avqustunda Mehdi Qızıl Orduya çağırılmış və 1942-ci ildə Tbilisi hərbi piyada məktəbini bitirdikdən sonra cəbhəyə yollanmışdır. Minomyot taqımının komandiri kimi Stalinqrad döyüşündə iştirak etmiş, 1942-ci ilin avqustunda Kalaç şəhəri ətrafındakı qanlı vuruşmaların birində ağır yaralanaraq, almanlara əsir düşmüşdür. Almaniyaya göndərilən Mehdi Berlində üçaylıq tərcüməçi kurslarında iştirak etmiş və alman dilini öyrənmişdir. 1943-cü ilin sonlarında Mehdi, bir dəstə azərbaycanlı əsir ilə faşist əsarətindən qaçıb, Yuqoslaviya və İtaliya partizanlarına qoşuldu...".



Muzey rəisi qeyd etdi ki, diversiya əməliyyatlarının hazırlanmasında və həyata keçirilməsində, mürəkkəb kəşfiyyat tapşırıqlarının yerinə yetirilməsində, mülki əhalinin qorunmasında, düşmənin hərbi və canlı qüvvəsinin məhv edilməsində xüsusi xidmətləri olan M.Hüseynzadə həm silahdaşlarının, həm də yerli əhalinin sevimlisinə çevrilir, onu ələ keçirməyə çalışan Almaniya ordusu Mixaylo ləqəbi ilə tanınan qəhrəman partizanın başına böyük məbləğdə mükafat təyin edir... "1944-cü il noyabrın 16-da Vitovli kəndi yaxınlığında gedən döyüşlərdə həlak olan Mixaylonun şanlı döyüş yolu müharibənin bitməsinə bir neçə ay qalmış yarımçıq qalıb. 1957-ci ildə M.Hüseynzadəyə ölümündən sonra Sovet İttifaqı Qəhrəmanı adı verilib. 1958-ci ildə ölməz qəhrəmana həsr olunmuş "Uzaq sahillərdə" filmi lentə alınıb, 1973-cü ildə isə Azərbaycanın ümummilli lideri Heydər Əliyevin səyi nəticəsində qəhrəmana Bakıda abidə ucaldılıb. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin göstərişi ilə 2007-ci ildə Sloveniyanın Nova Qoritsa rayonunun Şempas qəsəbəsində M.Hüseynzadənin büstünün açılışı olub".

Qəhrəman haqqında geniş məlumat verən ehtiyatda olan polkovnik vurğuladı ki, Mehdi Hüseynzadə apardığı çoxsaylı uğurlu kəşfiyyat əməliyyatları və nümayiş etdirdiyi misilsiz hərbi şücaətləri ilə böyük şöhrət qazanıb və Azərbaycan xalqının zəngin tarixi hünər salnaməsinə şanlı səhifələr yazıb. Yüksək əxlaqi keyfiyyətlərə malik cəsur kəşfiyyatçının rəşadət dolu şərəfli həyat yolu bu gün Vətənimizin sərhədlərini layiqincə qoruyan və işğal altındakı torpaqlarımızı azad etməyə hər an hazır olan mətin Azərbaycan əsgəri üçün parlaq qəhrəmanlıq nümunəsidir.

Sovet İttifaqı Qəhrəmanının adını daşıyan bacısı oğlu Mehdi Əzizbəyov bildirdi ki, mən dayımı görməmişəm. "Anam və xalam onunla bağlı xatirələrini daim bizimlə bölüşərdilər. Qeyri-adi istedada, yüksək əxlaqi və iradi keyfiyyətlərə malik qəhrəman əsrlər keçsə belə xatirələrdə qarabuğdayı, tünd saçlı, enlikürək, hündürboylu, qorxubilməz, Vətənini, torpağını canından çox sevən bir gənc olaraq xatirələrdə yaşayacaq. Qəhrəmanlar ölmür, onlar ürəklərdə əbədilik qazanır, xatirələrdə daim yaşayırlar. Mən dayımla daim qürur duymuşam. Tanrı onu qəhrəman kimi yaratmışdı...".

Ruqiyyə Əliyeva, Nizami Abbas, Məhəmməd Həkimov və başqaları çıxışlarında Mehdi Hüseynzadənin qəhrəmanlığından, dövlətimizin onun xatirəsinə ehtiramından söz açdılar.

Sonra Mehdi Hüseynzadəyə həsr olunan sənədli film nümayiş olundu.

Sonda "Art Accent" studiyasının azyaşlı uşaqlarının çəkdikləri Qarabağ müharibəsinə həsr olunmuş rəsm əsərlərindən ibarət "Əsgərə məktub" adlı sərginin açılışı oldu. Nümayiş olunan rəsm əsərləri müəlliflər tərəfindən zabit və əsgərlərə hədiyyə olundu.

**Baş leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu"**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***10 dekabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 27 dəfə pozub.

Ermənistan Respublikası Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

İşğal altında olan Ağdam rayonunun Tağıbəyli, Novruzlu, Yusifcanlı, Füzuli rayonunun Qobu Dilağarda, Qərvənd, Kürdlər, Cəbrayıl rayonunun Nüzgar kəndləri yaxınlığında, həmçinin Tərtər və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

***11 dekabr 2018-ci il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 24 dəfə pozub.

Ermənistan Respublikası Berd rayonunun Mosesqex və Çinari kəndlərində yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam və Muncuqlu kəndlərində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Tağıbəyli, Baş Qərvənd, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Qaraxanbəyli, Kürdlər, Horadiz kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

AZƏRBAYCAN ORDUSU

*Fiziki hazırlıq*

# Qələbə ilə qayıdacağam!

*Düşmənlə təmas xəttində yerləşən "N" hərbi hissəsində şəxsi heyətin fiziki hazırlıq məşğələsi ilə yaxından tanış oluruq. Hərbi hissədə geniş ərazisi, müxtəlif idman alətləri, səliqəli futbol və voleybol meydançalarından savayı, beynəlxalq standartlara cavab verən yeni qurğular ilə təchiz olunan idman otağı diqqətimizi cəlb edir.*

Günün nizam qaydasına uyğun olaraq şəxsi heyət müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Məhəmmədəli Məmmədovun nəzarəti altında məşq edirdi. Məşğələnin gedişatına maneçilik törətmədən əsgərlərimizin paralel qollarda, turniklərdə, qaçış alətlərində, güc və pres trenajorlarında hərəkətlərini seyr edirik.



Məşğələ bitdikdən sonra çavuş Məhəmmədəli Məmmədovla həmsöhbət oluruq. Öyrənirik ki, həmsöhbətim dörd il idmanın boks növü üzrə məşğul olub və 2004-cü ildə keçirilən region çempionatında bütün rəqiblərinə qalib gələrək birinci yerə layiq görülüb. M.Məmmədov bildirdi ki, əsgərlərimizin fiziki cəhətdən möhkəm, güclü olmaları onların döyüş ruhunu daha da artırır. "Məhz buna görə də ordumuzda fiziki hazırlığa diqqət yüksəkdir. Hərbi hissələrdə yeni idman şəhərcikləri salınır, müasir idman alətləri ilə təmin edilmiş trenajor zalları fəaliyyət göstərir. Fiziki hazırlıq şəxsi heyətin döyüş hazırlığının mühüm və ayrılmaz tərkib hissəsidir. Fiziki hazırlığın başlıca məqsədi əsgərlərin sağlamlığını, iradəsini, dözümlülüyünü yüksəltməkdir. Məşğələlər sayəsində əsgərlərimizin sağlamlıqları möhkəmlənir, fiziki inkişafı yüksəlir. Bunlar mürəkkəb relyefli ərazidə hərəkət zamanı təbii və süni maneələrin dəf olunmasında, əlbəyaxa döyüş təmrinlərini mükəmməl mənimsəməyə kömək edir".

Xızı rayonundan ordu sıralarına çağırılan, idmanın cüdo növü üzrə 2013-cü ildə keçirilən Bakı çempionatının qalibi olan əsgər Yunis İbrahimzadə bildirdi ki, idmanın həyatımızda əhəmiyyəti çox böyükdür. "Bəzi adamlar üçün idman hobbi deyil, həyat tərzidir. İnsan sağlam olmaq istəyirsə, müntəzəm idmanla məşğul olmalıdır. Mənim hələ kiçik yaşlarımdan idmana böyük marağım olub. Daim öz üzərimdə çalışır, məşq edirdim. Gündən-günə təcrübəmi artırırdım. İdmançılardan bəhs edən filmlərə baxır, fərdi qaydada hazırlığımı yüksəldirdim. Burada da komandirlərimizin nəzarəti altında məşqlərimi davam etdirirəm. Günün nizam qaydasına uyğun olaraq hər gün fiziki hazırlıq məşqləri ilə məşğul oluruq. Bunun nəticəsidir ki, təlimlər zamanı verilən əmr və tapşırıqların öhdəsindən layiqincə gəlirik. Döyüş meydanında düşməni asanlıqla istər atəşlə, istərsə də əlbəyaxa döyüşlə məhv etməyə qadirik. İnanırıq ki, ailəmizin yanına qələbə sorağı ilə qayıdacağıq".

- Hər bir gənc idmana önəm verməlidir. Bilməlidir ki, qarşıda işğalda olan torpaqlarımız, xalqımızın canına susayan düşmənlərimiz var. Buna görə də Ali Baş Komandanımızın döyüş əmri ilə gələcək döyüşlərdə qələbə zəfərini qazanmaq üçün psixoloji hazırlıqla yanaşı, fiziki güc də tələb edilir. Komandirlərimiz bizlərə mütəmadi olaraq məşqlər keçirlər. Biz də öz növbəmizdə müxtəlif trenajorlar və alətlərdə çalışmaları dəqiq, sərrast və tez yerinə yetiririk. İnanırıq ki, qısa bir müddətdə Qarabağ həsrətinə son qoyacağıq, - bu sözləri Siyəzən rayonundan hərbi xidmətə çağırılan əsgər Əkbər Həmzəyev dedi.



Əsgərlər Roman Zeynalov, Elşən Babayev, Oruc Mütəllimov və digərləri də idmana olan sevgilərindən, hərbi hissədə fiziki hazırlığın artırılması üçün yaradılan yüksək şəraitdən, idmanla məşğul olmaqlarından, Ali Baş Komandanımızın döyüş əmrini səbirsizliklə gözləmələrindən söz açdılar. Əsgərlər Vətəni sevdiklərini, onun uğrunda istənilən an canlarından keçməyə hazır olduqlarını və Vətənə layiqli xidmət etməyi özlərinə övladlıq borcu bildiklərini qeyd etdilər.

**Baş leytenant**
**Orxan HÜSEYNLİ,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

*Hərbi texnikalar, silahlar*

# 82 mm-lik 2B25 "Qall" minaatanı

Müasir səssiz, alovlanmayan və çox yüngül çəkili 82 mm-lik 2B25 "Qall" minaatanı Rusiyada istehsal olunub. Minaatan xüsusi təyinatlı bölmələr üçün nəzərdə tutulub. "Qall" minaatanının tərkib hissəsi çox sadədir (boru, ikiayaqlı dayaq lövhəsi və nişangah cihazları). Döyüş vəziyyətində onun çəkisi 13 kiloqram təşkil edir. Minaatanın ştat heyəti iki döyüşçüdən ibarətdir. Lakin onu bir nəfər daşıya bilər. Gövdəsindəki kəmər (qayış) vasitəsi ilə silah bel hissəsinə bərkidilir və bütövlükdə çox da böyük olmayan çantaya yerləşdirilir. Ondan istifadə etmək üçün atıcıya atış sahəsini hazırlamaq gərəkdir. Silahın alüminium ərintisindən hazırlanan dayaq plitəsi çox yüngüldür. Məmulatın səyyar vəziyyətindən döyüş vəziyyətinə və geriyə gətirilməsi 30 saniyədir.



"Qall" minaatanının əsas xüsusiyyətlərindən biri "hiyləgər" adlanan döyüş sursatlarının olmasıdır. Hansı ki, bu ona səssiz atəş açmağa imkan verir. Minaatanın atəş uzaqlığı bir kilometrdən çoxdur və bu da ona atıcının harada yerləşməsini aşkar etməyə imkan vermir. Atəş tezliyi dəqiqədə 15 atışdır. Onun 3B035 qəlpə minası döyüş hissəsindən və uzun quyruqcuqdan ibarətdir.

Silah sığınacaqlarda və zirehli geyimlərdə olan düşmənin canlı qüvvəsini məhv etmək üçün nəzərdə tutulub. "Qall" minaatanından müxtəlif hava şəraitində istifadə etmək olar. Hazırda dünyanın 30-dan çox ölkəsi bu silahı əldə etməyə çalışır.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Hindistan nüvə başlığı daşıya bilən ballistik raketi sınaqdan keçirib



Hindistan nüvə başlığı daşıya bilən "Agni-V" qitələrarası ballistik raketin növbəti sınaqlarını keçirib.

Sınaqlar dekabrın 10-da səhər saatlarında ölkənin şərqində yerləşən Odişa ştatının Abdul Kalam adasındakı poliqonda baş tutub. Bu, "Agni-V" raketlərinin ümumilikdə 7-ci sınağıdır. Raketin dəyəri 2,5 milyard rupi (480 milyon dollar) məbləğində qiymətləndirilir.

Qeyd edək ki, "Agni-V" ballistik raketin ilk sınaqları 2012-ci il aprelin 19-da baş tutmuşdu. Üçpilləli qitələrarası "Agni-V" 5-8 kilometr məsafədəki hədəfləri vurmağa qadirdir.

## Əfqanıstanda "Taliban" silahlılarının hücumu nəticəsində azı 8 hərbçi həlak olub



Əfqanıstanın Farah vilayətində "Taliban" silahlılarının hücumu nəticəsində azı 8 hərbçi həlak olub, daha 6 əsgər əsir götürülüb.

Bala Buluk rayonundakı hərbi bazaya hücum edən silahlılar oradan silah və döyüş sursatları götürüblər.

Hücum zamanı baş verən atışma nəticəsində "Taliban"ın iki üzvü də yaralanıb.

## Ermənistan ordusu cinayətkar aləmin qanunları ilə idarə olunur



Ermənistandakı həbsxanalarla silahlı qüvvələr arasında çoxlu oxşarlıqlar var. Hər iki sahə çox gəlirli biznesə çevrilib. Bu sözləri mətbuata açıqlamasında Ermənistanın hüquq müdafiəçisi Vardan Arutyunyan deyib.

Onun sözlərinə görə, 1990-cı ildə ordu cinayətkar düşüncələr və ünsürlər əsasında formalaşıb. Həmin dövrdə orduya çoxlu sayda cinayətkar ünsürlər cəlb olunub. Ordu da məhz həmin cinayətkar ünsürlərin düşüncələri və "oğru qanunları" əsasında idarə olunur.

Hüquq müdafiəçisinin fikirlərini müdafiə edən mətbuat yazır ki, Ermənistanda ordu çox gəlirli biznesə çevrilib. İnsanı soruşmadan orduya çağırırlar və o, dərhal Dağlıq Qarabağa göndərilir. Sonra da onun Dağlıq Qarabağa "könüllü" getdiyi bildirilir. Hərbi komandanlıq hesab edir ki, əsgəri söymək, təhqir etmək, ac saxlamaq lazımdır. Belə olan halda əsgərin ailəsi onu ərzaq, paltar və digər lazımi əşyalarla təmin edəcək. Komandirlər sonra da bunun "həyat məktəbi" olduğunu iddia edirlər.

"Həbsxanalarda da yataq yeri və digər gündəlik tələbat malları pulla satılır. Burada da insanın söz demək, tələb etmək hüququ yoxdur. Əgər bu böyük biznesdirsə, deməli kimlərsə bundan yaxşı qazanc əldə edir", - deyə mətbuatda vurğulanır.

## Sudanda göyərtəsində hakimiyyət nümayəndələrinin olduğu helikopter qəzaya uğrayıb



Sudanda göyərtəsində hakimiyyət nümayəndələrinin olduğu helikopter qəzaya uğrayıb. Hadisə ölkənin şərqindəki Əl Kadarif rayonunda baş verib.

Qəza nəticəsində 7 məmur həlak olub. Qəzanın səbəbləri barədə məlumat verilmir.

**AZƏRTAC-ın materialları əsasında**

| Baş redaktor | Telefonlar | Ünvanımız | Növbətçi | Qəzetin hesabı | | |
|---|---|---|---|---|---|---|
| polkovnik-leytenant İlham BEHBUDOV | Baş redaktor: (012) 510-71-97 (faks); Baş redaktorun müavini: (012) 510-64-27; Məsul katib: (012) 510-71-98; Məktublar şöbəsi: (012) 510-64-28. | Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi | baş leytenant Orxan HÜSEYNLİ | Nərimanov Rayon Xəzinədarlığı Kod: 200189 VÖEN: 1500428611 | Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır. Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz. | Lisenziya № 361 Sifariş № 1026 Nüsxə 3525 |